# "İslam mədəniyyətində birgəyaşayış təcrübəsi" mövzusunda II Beynəlxalq Simpozium başlayıb

Türkiyədə Kırıkkale Universitetinin İslam elmləri fakültəsi, İslam Ölkələri Tətbiq və Araşdırma Mərkəzi, Azərbaycan İlahiyyat İnstitutu, İndoneziya Sunan Kalijaga Yogyakarta Dövlət İslam Universiteti və Mənəvi Dəyərlərin Təbliği Fondunun birgə təşkilatçılığı ilə "İslam mədəniyyətində birgəyaşayış təcrübəsi" mövzusunda II Beynəlxalq Simpoziumun açılış mərasimi baş tutub.



Açılış mərasimində Türkiyə və Azərbaycan şəhidlərinin xatirələri birdəqiqəlik ehtiram sükutu ilə yad edilib. Azərbaycan Respublikasının və Türkiyə Cümhuriyyətinin Dövlət himnləri səsləndirilib. Kırıkkale Universiteti İslam elmləri fakültəsinin tələbəsi Məhəmməd Əmin Coşkunun Qurani-Kərim tilavəti ilə tədbir davam edib.

Simpoziumda açılış nitqi ilə çıxış edən tədbirin təşkilat komitəsinin sədri Şahin Əhmədoğlu bildirib ki, fərqli dinlərə, dillərə, irqlərə, rənglərə və etnik quruluşa sahib olan insanlar dünyada birgə yaşayırlar. Müxtəlif coğrafiyalarda yaşayan insanlar, əsasən cəmiyyətin onlara aşıladığı həyatı bilir və mənimsəyirlər. İslam dininin məqsədi ağıldan istifadə edən, qanuna və hüquqlara əməl edən, ədalətli, gözəl tərbiyəli, fikir azadlığına və yaşamaq hüququna hörmət göstərən, mərhəmətli, bağışlayan insan yetişdirməkdir.

Ş.Əhmədoğlu daha sonra vurğulayıb ki, islam sivilizasiyasının bir parçası olan Türkiyə müsəlman ölkələri arasında strateji mövqeyinə görə mühüm missiyaya malikdir. Məruzəçi belə bir tədbirin Türkiyə ilə dərin tarixi və mədəni əlaqələrə malik olan qardaş Azərbaycanla birlikdə keçirilməsini məqsədəuyğun hesab etdiyini vurğulayıb. Bildirib ki, simpoziumda 14 ölkədən və Türkiyənin müxtəlif universitetlərindən 100-dən artıq alim məruzə ilə çıxış edəcəkdir.

Kırıkkale Universiteti İslam elmləri fakültəsinin dekanı Mövlud Erten bildirib ki, texnologiyanın inkişafı ilə dünya kiçilmişdir. Dövlətlər və qitələr arasındakı sərhədlər indi yalnız fizikidir. Ona görə də "birgəyaşayış" dediyimiz ifadə fiziki ölçülərini çoxdan aşmış, onun paradiqması da dəyişmişdir.

Tədbirdə çıxış edən DQİDK sədrinin birinci müavini Səyyad Salahlı Azərbaycanda müxtəlif dinlərin, fərqli etnik qrupların yüzillərboyu sülh şəraitində, çətin anlarda bir-birlərinə dəstək verərək yaşadıqlarını müasir və tarixi nümunələrlə izah edib, ölkəmizdə multikultural həyatın 23 müxtəlif ölkədə akademik şəkildə öyrənildiyini və mühazirələrdə izah edildiyini vurğulayıb.

Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov vurğulayıb ki, Qurani-Kərimin bir yerində birgəyaşamanın nəzəri prinsiplərinə rast gəlirik. İslam mədəniyyətinə nəzər saldıqda, beytül-hikmənin Abbasilər dövründə qurulduğunu görürük. Beytül-hikmənin əsas vəzifələrindən biri də islam sivilizasiyalarından başqa, elmi və fəlsəfi kitabları, xüsusən də qədim yunan mədəniyyətinə aid kitabları ərəb dilinə tərcümə etmək idi. Bundan əlavə, Əndəlüs nümunəsi ən parlaq amillərdən biridir. Əndəlüs müsəlmanlarla yanaşı, yəhudi və xristianların da islam mədəniyyətinə töhfə verdiyi bir məkandır. Bu gün İslam dünyasında məzhəblərin toqquşmasını müşahidə edirik. Buna əsas səbəb məzhəb kimliyini dini kimlikdən üstün tutmaqdır. Məzhəblərin olması çox təbiidir, amma dini kimlikdən üstün tutmaq yanlışlıqdır. Bunlar birgəyaşayış ənənəmiz qarşısında duran ən mühüm problemlərdən biridir.

Daha sonra digər çıxışçılar bu simpoziumun gənclərə islam sivilizasiyasında birgəyaşayış ənənəsi haqqında bir çox bilgilərin çatdırılması üçün önəmli platforma rolunu oynayacağına ümid etdiyini bildiriblər.

Qeyd edək ki, simpoziumun ilk iki günündə cəmiyyət, təhsil və islamın əsas mövzuları çərçivəsində eyni vaxtda 103 məruzə baş tutacaq.

***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 7 oktyabr.- S.16.